# HEYDƏR ƏLİYEV İDEYALARI BÜTÜN UĞURLARIN TƏMƏLİDİR

**Müasir Azərbaycanı haqlı olaraq ümummilli liderimizin şah əsəri sayırlar. Heydər Əliyevin qurucusu olduğu, qısa bir zaman ərzində geniş inkişaf yoluna çıxardığı Azərbaycan dövləti hazırda öz iqtisadi, siyasi və mədəni qüdrətini durmadan artırır, bütün dünyada tanınır. Ümummilli liderimizin yaratdığı möhkəm təməl üzərində ölkəmizdə demokratik prinsiplər sürətlə bərqərar olur, dövlətçilik ənənələrimiz möhkəmlənir, işgüzar, güclü Azərbaycan yaranır.**

Ulu öndərimizi dünyanın tanınmış siyasətçiləri və dövlət başçıları ilə müqayisə edirlər. Mənim fikrimcə isə o, dünyada heç kəslə, heç bir dahi şəxsiyyətlə müqayisəyə gəlmir. Dahi rəhbərimizin öz xalqı və milləti üçün gördüyü işləri heç bir dövlət xadimi görə bilməmişdir. O öz zəkası, mətin iradəsi, gərgin zəhməti ilə fırtınalar burulğanında inildəyən bir ölkəni qısa bir müddət ərzində bəlalardan xilas etdi. İndi dünyanın xəritəsində Azərbaycan adlı bir müstəqil dövlət var ki, onun da yaradıcısı məhz Heydər Əliyevdir.

Bütün şüurlu həyatını ölkəmizin çiçəklənməsinə həsr etmiş Heydər Əliyevin müqəddəs ideyaları artıq neçə illərdir ki, uğurla həyata keçirilir. Bu ideyaların ən başlıca məqsədi xalqa, dövlətə sədaqətlə xidmət etmək, vətəndaşların həyat səviyyəsinin yaxşılaşdırılmasına nail olmaqdır. Tarixi baxımdan o qədər də böyük olmayan son illər ərzində dövlətimizin sosial-iqtisadi, ictimai-siyasi, mədəni həyatında misilsiz dəyişikliklər baş verib. Bundan ötrü Azərbaycan regionlarının sosial-iqtisadi inkişafına dair Dövlət proqramlarının həyata keçirilməsinin yekunlarına diqqət yetirmək kifayətdir. Bu illər ərzində iqtisadiyyatın inkişafı, əhalinin sosial vəziyyətinin yaxşılaşdırılması, yeni iş yerlərinin yaradılması, şəhər və kəndlərin abadlaşdırılması və müasirləşdirilməsi sahələrində elə nailiyyətlər qazanılmışdır ki, bunları əvvəlki illərdə müşahidə etməmişdik. İndi razılıqla qeyd etmək olar ki, Heydər Əliyevin qurduğu təməl üzərində yeni-yeni tədbirlər həyata keçirilir, müstəqilliyimizin qorunmasına çox mühüm önəm verilir.

Azərbaycan xalqının Heydər Əliyev irsinə sədaqəti, onun siyasətinin və müəyyən etdiyi strateji inkişaf kursunun alternativsizliyi birmənalı şəkildə qəbul etməsi ulu öndərimizin parlaq ideyalarının həmişəyaşarlığına dəlalət edir. Onu da qeyd etmək vacibdir ki, dahi rəhbərimizin hərtərəfli düşünülmüş strategiyasının həyata keçirilməsində varislik faktoru çox mühüm rol oynayır və fikrimcə, möhtərəm Prezidentimizin fəaliyyəti bunu dəfələrlə təsdiq etmişdir. Cənab İlham Əliyevin müasir Azərbaycan siyasətində uğurlu fəaliyyəti mahiyyət etibarilə Heydər Əliyev siyasətinin məntiqi davamı və yeni bir keyfiyyətlə inkişaf etdirilməsidir.

Heydər Əliyevin memarı olduğu müasir ölkəmizin vətəndaşları doğma el-obanın səadəti üçün hər an fədakarlığa hazır olan adamlardır. Bu yurdun qurucu adamları, qabaqcıl ziyalıları yetərincədir və bu da bir faktdır ki, ölkəmizdə ziyalılığın bünövrəsi olan təhsilə diqqət və qayğının səviyyəsi getdikcə yüksəlir, milli təhsilimiz bu qayğıdan güc alaraq dünya standartları səviyyəsinə çıxır. Heydər Əliyevin başladığı təhsil islahatının uğurla həyata keçirilməsi ümumdövlət və ümumxalq işinin tərkib hissəsinə çevrilmişdir. Ölkə iqtisadiyyatının misli görünməmiş sürətlə inkişaf etməsi, onun dinamik vüsəti, əhalinin maddi və mədəni həyat şəraitinin durmadan yaxşılaşması sağlam, bilikli, zəkalı və geniş dünyagörüşlü nəslin yetişdirilməsinə imkanlar yaradır. Ulu öndərimiz vaxtilə demişdi: "Bizim məqsədimiz müstəqil Azərbaycan üçün daha bilikli, daha zəkalı gənclər hazırlamaqdır". Bu qiymətli kəlam bu gün bütün cəmiyyətimiz üçün həyati əhəmiyyət kəsb edən, uca məqsədlərə aparan yollarımızı nurlandırır.

Heydər Əliyev mükəmməl təhsili ölkənin gələcəyi hesab edirdi. Xatırlayıram, hələ ötən yüzilliyin 70-ci illərində bu böyük ziyalı, müəllimlər müəllimi təhsil sistemində nə qədər müsbət dəyişikliklər etdi, gənclərimiz xarici ölkələrdə təhsil almağa göndərildi. Onlar çox keçmədən yüksək səviyyəli mütəxəssislər kimi ölkəmizə qayıtdılar, ana yurdumuza yeni quruculuq nəfəsi gətirdilər. Onların bir qisminin xoş soraqları indinin özündə uzaq ellərdən gəlir, elmi nailiyyətlərimizin, alimlərimizin sədası dünyanın simpoziumlarından, konfranslarından eşidilir.

Ümummilli lider Heydər Əliyev müasir təhsilimizin özülünü bina etdi, onu saflaşdırdı, nəhəng islahat işlərinin müəllifi oldu. Ulu öndərimiz müəllim peşəsini bütün peşələrin şahı hesab edirdi, pedaqoqların işləri, hal-əhvalları ilə daim maraqlanırdı, ehtiyaclarını hər vasitə ilə azaltmağa çalışırdı. Onun hakimiyyətdə olduğu illərdə müəllimlərin əməkhaqları bir neçə dəfə artırıldı, təhsil və məişət şəraitinin yaxşılaşdırılması üçün əsaslı tədbirlər görüldü. Biz müəllimlər ulu öndərimizin xeyirxahlığını heç vaxt unutmayacağıq və özümüzü daim ona borclu hesab edirik.

Son illər hörmətli Prezidentimizin imzaladığı müvafiq sərəncam və fərmanlar nəticəsində təhsil ocaqlarında səmərəli fəaliyyət sistemi qurulmuş, mövcud iş rejimi təkmilləşdirilmiş, yeni informasiya mühiti yaradılmış, elmi-metodiki təminat yüksəldilmişdir. Gənclər siyasətini, xüsusi istedada malik olan uşaqlara qayğı və diqqəti özündə ehtiva edən xüsusi Dövlət proqramları qəbul edilmiş, təhsil haqqında yeni strategiya təsdiq olunmuşdur.

Cənab İlham Əliyevin Ağcabədiyə etdiyi səfərlər zamanı ziyalılarımızla, zəhmət adamlarımızla səmimi görüşləri, onun rayonumuza etdiyi hərtərəfli kömək bizi hədsiz sevindirir. Rayonumuzda son illər ərzində onlarca məktəb binası tikilib istifadəyə verilmişdir. Müəllimlərimizin işə olan münasibəti daim yaxşılaşır, şagirdlərimiz təhsildə, bilik və idman yarışlarında yaxşı nəticələrə nail olurlar. Bu mənada ulu öndərimizin müəyyən etdiyi strategiyanın nə qədər düzgün olduğunun canlı şahidləriyik.

Bizim pedaqoji kollektivlərimiz özlərinin bütün fəaliyyətlərini bu vəzifələr baxımından qurmaq üçün var qüvvə ilə çalışırlar. Bütün məktəblərimizdə təhsilin məzmununun müasirləşdirilməsi, onun keyfiyyətinin, məktəblərin texniki və kadr təminatının yaxşılaşdırılması, təhsil ocaqlarının informasiya-kommunikasiya üzrə maddi-texniki bazasının təkmilləşdirilməsi daha yaxşı təşkil olunmuşdur. Kompüter avadanlığı və digər zəruri rəqəmsal avadanlıqla təminatın yüksəldilməsi, şagirdlərin pulsuz dərsliklərlə təmin edilməsi və məktəb kitabxanalarının fəaliyyətinin təkmilləşdirilməsi sahəsində ötən illərdə başlanılmış işlər yeni qüvvə ilə davam etdirilir. Bundan başqa, əhalinin bütün təbəqələrinin təhsil almaq imkanlarının bərabərləşdirilməsi, xüsusi qayğıya ehtiyacı olan uşaqların təhsilinin yaxşılaşdırılması, məktəbəqədər təhsil sahəsində islahatların sürətləndirilməsi, bu sahənin maddi-texniki bazasının möhkəmləndirilməsi, yeni uşaq tərbiyə müəssisələrinin yaradılması da bundan sonra daim diqqət mərkəzində duracaqdır. Şagirdlərin bilik yarışlarında daha geniş iştirakının təmin edilməsi, onların milli vətənpərvərlik ruhunda tərbiyəsi, yeniyetmə və gənclərin kütləvi surətdə bədən tərbiyəsi və idmana cəlb edilməsinə diqqəti artırmışıq.

İnanırıq ki, xalqımızın nailiyyətləri bundan sonra daha da möhkəmlənəcək, müstəqil respublikamız öz qüdrətini artıracaqdır. Biz daha güclü dövlətə çevriləcəyik, heç kəsdən siyasi, iqtisadi asılılığımız olmayacaq. Əslində belə asılılıq indi yoxdur, möhtərəm Prezidentimiz bunu dəfələrlə bəyan etmişdir. Müstəqilliyimizin başlıca göstəricisi də məhz budur.

1993-cü ildən sonrakı tarixinimiz ərzində görülən işlər, əməllər heç vaxt görülməyib. Buna görə də bizim nəslin insanları, övladlarımız, bütün Azərbaycanın oğul və qızları dövlətimizi göz bəbəyi kimi qorumalı, yaşatmalı və inkişaf etdirməlidirlər. Unutmayaq ki, bizim bu günümüz kimi, sabahımız da dövlətçilik uğrunda mübarizədən qida alıb, bu mübarizəni davam etdirərək suverenliyimizi və azadlığımızı daha da möhkəmləndirməliyik.

Qarşıda duran vəzifələr heç də asan deyil. Lakin pedaqoji kollektivlərimizi heç bir çətinlik qorxutmur. Müəllim əməyinə ulu öndərimizin verdiyi yüksək qiymət onları həmişə mübariz olmağa, Vətənin gələcəyi üçün bütün qüvvələrini əsirgəməməyə səfərbər edir, yeni nailiyyətlərə ruhlandırır. Biz müəllimlər hamımızın ən böyük müəllimi olmuş Heydər Əliyevin müqəddəs vəsiyyətlərinə daim yüksək fəallıqla əməl edəcəyik, onun ucaltdığı milli-mədəni dəyərlər bayrağını başımız üstündə möhkəm tutacağıq. İllər ötəcək, nəsillər bir-birini əvəz edəcək, Azərbaycanın müasir tarixinin müəllifi Heydər Əliyev dühasının işığı isə sönməyəcək, milli tərəqqi ideyası yollarımızı əbədi nura qərq edəcəkdir.

**Mehdi ƏHMƏDOV,**
**Ağcabədi Rayon Təhsil Şöbəsinin müdiri.**